

Tahir TAİSOĞLU
(MƏMMƏDOV)

# Azərbaycan həmişə hörmətlə anacaqdır

*Gözünüz aydın olsun, sizin ey "91"-lər!..*
*Güllələrsiz, meyitsiz açır indi səhərlər.*
*Bütün dünya boylanır Azərbaycan elinə.*
*Düşmənlərin canını qüssə-ələm alsa da,*
*Dostlarınız ürəkdən hey sevinə-sevinə gəlir Azərbaycana!*
*Gözünüz aydın olsun, sizin ey "91"-lər!..*
*İndi təkcə sizin yox, bütün türk ellərinin,*
*Alnını açıq etdi, ürəyini şad etdi, dilədiyiniz rəhbər!*

* * *

*Elə bir gündəydik ki, elə düyündəydik ki,*
*Ümid qalmamışdı heç nə axşama, səhərə...*
*Həyatımız dönmüşdü faciəyə, zəhərə,*
*Bircə addım qalırdı ocaq sönürdü artıq.*
*Qardaşdan qardaşın da üzü dönürdü artıq.*
*Çəkilmişdi bərəkət, cəbhədə atılası,*
*O atəşlər, güllələr özümüzün üstünə.*
*Tuşlanmış idi fəqət qorxu, təlaş içində,*
*İnləyirdi bu millət, var olun "91"-lər.*
*Xalqımıza əbədi yar olun "91"-lər,*
*Heydər kimi möhtəşəm bəşəri sərkərdəni,*
*Millətini canından artıq sevən dahini,*
*Səsləyib çağırdınız işıqlı bir ilhamla.*
*Cəsarətli, inamla bir xalqın yaddaşında,*
*Qalacaqdır adınız, öpürəm hamınızı.*
*Əziz "91"-lərim, hünər sizə ad olsun,*
*Mövsüm, Mirzə, Ulutürk nurla dolsun qəbriniz.*
*Qoy ruhunuz şad olsun əziz "91"-lərim,*
*Xoşbəxtəm ki, mənim də aranızda var yerim!*
*Millətə sevginizdə sönməz ocaq alışır,*
*Sevgisi qəlbinizdə aşıb daşan o rəhbər.*
*Bu dünyanın ən uca kürsüsündən danışır!*
*BMT zallarında səslənir addımları,*
*Avropanın nəbzində çırpınan xallarında,*
*Səslənir addımları səsinin qanadında.*
*Yorulmaz inadında yaxınlaşır yurdumun təzə, abad baharı...*

* * *

*Azərbaycan həmişə hörmətlə anacaqdır,*
*Dönməz "91"-ləri bu millətin əbədi.*
*Dəyişilməz rəhbəri hər gün təzədən açan,*
*Səhərimizdir bizim yaxınlaşmaqda olan,*
*Zəfərimizdi bizim Yeni Azərabycanın.*
*Memarı, Əcəmisi, Heydərimizdir bizim!*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 6 may.- S. 28.